**Xəzər Əkbər oğlu ASLANOV**
Azərbaycan Milli Elmlər Akademiyasının doktorantura tələbəsi
E-poçt: xezer.aslan@gmail.com

# QEYRI-FORMAL MƏŞĞULLUĞUN SOSİAL İQTİSADİ RİFAHA QLOBAL VƏ YERLİ SƏVİYYƏDƏ TƏSİRİ

**Xülasə**

Qeyri-formal məşğulluq elmi mövzuların ən vaciblərindən birinə çevrilmişdir. Qeyri-formal məşğulluq problemini görməzdən gəlməklə, Azərbaycanın sosial-iqtisadi inkişafının müasir vəziyyətinin təhlilini təsəvvür etmək çətindir. Bu mövzuda nəşrlər günü-gündən böyüyür, lakin bu anlayışın sərhədləri və onun daxili strukturu qeyri-müəyyən olaraq qalır. Mövcud konsepsiya haqqında ümumi məlumat - onun sərbəst işlənməsinə əsas verməkdədir. Lakin bu problem problemi inkişaf etməkdə olan ölkələrlə bağlı araşdırmalarda qaldırılmışdır. Bu isə, qeyri-formal sektorun öyrənilməsi kontekstində həyata keçirilmişdir. Anlayışın tətbiqi bu ölkələrdə mütəşəkkil əmək bazarında iştirak etməyən, lakin eyni zamanda yaşamaq ideyasına tabe olan öz məşğulluq sistemini yaratmış əhəmiyyətli insan qruplarının olması ilə əlaqədar olmuşdur. Bu, özünüməşğulluq və ya kiçik ailə biznesi formasında mövcud olan müxtəlif fəaliyyətlərdə özünü göstərmişdir

*Açar sözlər: Iqtisadiyyat, məşğulluq, maliyyə, büdcə, nəzəriyyə*

**UOT:** 331
**JEL:** J44
**DOI:** https://doi.org 10/54414/GVKO7108

## Giriş

Qeyri-formal iqtisadiyyat bir çox ölkələrin iqtisadi sistemlərinin ayrılmaz hissəsidir. O, hökumət tərəfindən tənzimlənməyən bütün iqtisadi fəaliyyətləri əhatə edir və formal qanunvericilik çərçivəsindən kənarda fəaliyyət göstərir [6].

Dünyanın bir çox ölkələrində, əsasən də inkişafdan geri qalmış ölkələrində iqtisadiyyatın və əmək bazarının böyük hissəsini qeyri-formal sektor təşkil edir. Bu sektor yeni iş yerlərinin açılmasında, istehsal həcminin yüksəlməsində, işsizliyin səviyyəsinin azaldılmasında və cari dövrdə əhalinin yaşamaq imkanlarının artırılmasında böyük rol oynayır. Bir tərəfdən əhalinin artımı, digər tərəfdən də urbanizasiya səviyyəsi yüksək olan ölkələrdə qeyri-formal sektor artan işçi qüvvəsinin əhəmiyyətli hissəsini şəhər ərazilərinə cəlb etməyə meyillidir. Qeyri-formal sektorun payının artması qeyri-formal məşğulluğun da yüksəlməsinə təsir göstərmişdir. Baxmayaraq ki, qeyri-formal məşğulluq yalnız qeyri-formal sektorda reallaşmır. Formal sektorda da dövlətin sərt tənzimləmə fəaliyyətləri (vergi yükü, sığorta və digər qanunvericiliyin sərtliyi) səbəbindən qeyri-formal məşğulluq arta bilər. Ancaq, ümumilikdə uzunmüddətli dövr üçün həm də qeyri-formal sektor, həm də qeyri-formal məşğulluq iqtisadi və sosial sahələrdə ciddi problem yaradır. [1]

## Qeyri-formal məşğulluğun əhatə dairəsi və baş vermə səbəbləri

Əgər qeyri-formal məşğulluğa verilmiş tərifi nəzərdən keçirsək, "əmək sahəsinə dair milli qanunvericiliyə sosial-sığorta sahəsinə dair normativ-hüququ aktlara cavab verməyən münasibətləridir." Daha geniş formada ifadə etsək, qeyri-formal məşğulluğa qeyri-formal sektor müəssisələrində çalışan işəgötürənlər, işçilər, əmək haqqı alan istehsal kooperativlərinin üzvləri, ailə istehsalçıları (məhsullarını yalnız ailələrin istehlakı üçün hazırlayanlar, məsələn həyətyanı təsərrüfatda istehsal etdiyi məhsulu ailə tələbatları üçün istifadə edənlər) istər formal, istərsə də qeyri-formal müəssisə və təşkilatlarında işləyən ailə işçiləri, formal sektorda əmək müqaviləsi bağlamadan çalışanlar və.s daxildir. Yuxarıda yazılanları ümmiləşdirsək qeyri-formal məşğuluğun aşağıdakı xüsusiyyətlərini sadalaya bilərik [5].

*İqtisadi konteksin siyasi və tənzimləyici çərçivədən asılılığı*: Qeyri-formallıq ölkənin

iqtisadi konteksindən asılı olaraq fərqli şəkildə özünü göstərə bilər. Belə ki, qeyri-formal məşğulluq inkişaf etməkdə olan ölkələrdə avtobus sürücüsündən tutmuş qabaqcıl iqtisadiyyatda tikinti işçisinə qədər müxtəlif peşələri əhatə edir. Yəni, qeyri-formal məşğulluq anlayışını hər hansı bir işçi qrupuna aid etmək və ya hansısa bir şirkətin siyasətinin məntiqi nəticəsi kimi əsaslandırmaq düzgün yanaşma deyil. Çünki, qeyri-formallığın əsasında duran başlıca amil onun ərazi bölgüsündən asılı olmayaraq asanlıqla əldə edilə bilən olmasıdır.

*İqtisadi faktorların sektorlar arasındakı fərqliliyi*: Qeyri-formal sektorda çalışan işçilər sosial müdafiədən və əlavə kredit resurslarına çıxış imkanından məhrum olduqları üçün daha az gəlirliyə sahibdirlər. Lakin, bu sektor işçilərinin əsas xüsusiyyəti şirkət tərəfindən ödənilmiş əmək haqlarının vergiyə cəlb olunmaması və bunun nəticəsində də qazanclarının daha çox olması sektorlar arasında kəskin fərqlərin yaranmasına gətirib çıxarır.

*Təhsilin diqqət mərkəzində olmaması*: Formal sektorda vəzifə artımı xüsusiyyəti mövcud olduğuna görə, bu sektor işçiləri öz bilik və bacarıqlarını artırmaqda meyillidirlər. Çünki, formal sektorda təhsil gəlirlə düz mütənasibdir. Yəni təhsil artıqca gəlir də artmağa başlayır. Lakin qeyri-formal sektorda gəlirlərin uzun müddət sabit qalması bu sektora məxsus işçinin də təhsilinə diqqət etməsi üçün motivasiya mənbəyi olmur. Belə ki, həmin işçilər aşağı məhsuldarlıqa məhdud maliyyə resurslarına çıxışa meyilli olurlar.

*Ayrı-seçkilik*: Qlobal miqayasda qeyri-formal məşğulluq üzrə çalışan işçilərin 58%-i qadınlardır. Hətta, qadlnlar qeyri-formal sektorun ən təhlükəli və həmçinin aşağ gəlirli kateqoriyalarında çalışan cins növünə aiddir. Bundan əlavə, beynəlxalq əmək təşkilatının məlumatına əsasən təqribən 2 mlrd işçi və ya 15 yaşlı uşaqların 60%-i vaxtının çox hissəsini qeyri-formal sektorda keçirir.

*Formal sektor daxilində qeyri-formallığın olması*: Formal sektorun özü də qeyri-formal sektorun əsas "müştərisidir". Belə ki, formal sektorda çalışan işçilərin məskunlaşması qeyri-formal sektor üzrə fəaliyyət göstərən müəssisə və təşkilatlarda baş verir. Dünya bankının açıqladığı rəqəmlərə əsasən, qeyri-formallıq aşağı gəlirli ölkələrin ÜDM-un 40%-ni, yüksək gəlirli ölkələrin ÜDM-un 17%-ni təşkil edir. Bundan əlavə, qeyd etmək olar ki, Beynəlxalq Əmək təşkilatının məlumatına əsasən, qeyri-rəsmi məşğulluun regionda payı 78.6% təşkil edir, bu nisbətin 65.8%-i qeyri-formal müəssisələrdə, 8.4%-i formal müəssisələrdə, 4.4%-i isə ev təsərrüfatlarında çalışır.

Bunu demək lazımdır ki, qeyri-formal məşğulluğu xarakterizə edən əsas məsələ, ölkədə fəaliyyətdə olan müəssisə və təşkilatların vergilərdən və sosial ödənişlərdən yayınmaq üçün formal məşğulluqdan uzaqlaşmasıdır. Bu məsələ həm şirkətlərə həm də dövlətin özünə mənfi təsir göstərir. Şirkət nöqteyi nəzərindən onların maliyyə resurslarına çıxış imkanı azalır və öz fəaliyyətlərini genişləndirməkdə çətinlik çəkirlər. Bunu qeyd etmək lazımdır ki, qeyri-formal məşğulluqda yoxsulluq səviyyəsi formal məşğulluqda olan yoxsulluq səviyyəsindən orta hesabla iki dəfə yuxarıdır. Dövlət nöqteyi nəzərindən isə, ölkədə iqtisadi artım potensial olaraq öz səviyyəsindən aşağıda qalır. Çünki, məlum məsələdir ki, qeyri-formallıq dövlətin gəlirlərini azaldır və nəticədə dövlət sosial proqramlara və investisiyalara pul xərcləmək üçün maddi imkan əldə edə bilmir [7].

Qeyri-formal sektorda qeyri-formal məşğulluğun üstünlük təşkil etməsi sosial müdafənin olmaması ilə iqtisadi vahidlərin qeyri-formallaşması arasında güclü əlaqə olduğunu göstərir. Bu o deməkdir ki, genişləndirilmiş sosial təminata nail olmaq həm sosial təminatın genişləndirilməsi strategiyalarını, həm də qeyri-formal müəssisə və təşkilatların rəsmiləşdirilməsini tələb edəcəkdir. Formal sektordakı qeyri-formal məşğulluq əsasən, iş yerlərinin rəsmi fəaliyyət göstərməsinə rəğmən sosial müdafiə və təminatın daha çox şirkət sahibinin qohum-əqrabalarına şamil edilməsi, muzdlu işçi qüvvəsinin isə bu imtiyazlardan geri qalmasıdır [9].

Ekspertlərin fikrinə əsasən, qeyri-formallıq prosesi narahatlıq doğuracaq məsələ deyil. Belə ki, inkişaf etməkdə olan bazarlarda ixtisassız işçilər üçün iş yerləri yaradır və şəhərlərdəki məşğulluq gərginliyini azaldır. Tədqiqatçıların fikrinə görə rəsmi istehsal və xidmət sektorları böyüdükcə daha çox iş yeri yaranacaq və nəticədə qeyri-formal məşğulluq problemi yox olacaq. Daha optimist düşünən iqtisadçıların fikrinə görə isə qeyri-formal iqtisadiyyatda fəaliyyət göstərən

şirkətlər böyüyərsə onlar kredit və digər yardımlara daha tez çatmaq üçün formal iqtsadiyyata keçid etməlidir. McKinsey Qlobal İnstitutunun (MGI) araşdırması deyilən bu fikirlərin reallıqdan uzad olduğunu qeyd edir. Belə ki, son 10 il ərzində Braziliya, Hindistan, Polşa, Portuqaliya, Rusiya və Türkiyə daxil olmaqla bir sıra müxtəlif ölkələrdə müxtəlif sənaye sahələrində qeyri-formallıq barədə edimiş tədqiqatlara əsasən, qeyi-formal şirkətlərin vergidən və digər öhdəliklərldən boyun qaçıraraq səbəb olduqları zərər aşağı məhsuldarlığı təmin etmək üçün yaradılan iş imkanların qazancından daha çoxdur. Buna görə də rəqabətin təhrif olunması qeyri-formal bizneslərin bazarda qalmasına və daha məhsuldar şirkətlərin bazarda xidmət göstərməsinə mane olur. Buna görə də qeyri-formallıq qısamüddətli şəkildə məşğulluğa müsbət təsir göstərsə də, uzunmüddətli şəkildə iqtisadi artıma və iş yerlərinin yaradılmasına mənfi təsir göstərir [6].

**Qeyri-formal məşğulluq beynəlxalq səviyyədə**

2014-2015-ci illərdə Beynəlxalq Əmək təşkilatının Ümumdünya Sosial Müdafiə Hesabatında qeyd olunur ki, dünya əhalisinin 73%-i sosial müdafiə təminatı olmadan yaşamağa davam edir və onların fundamental hüququ çox vaxt yalnız qismət həyata keçirilir və ya ümimiyyətlə həyata keçirilmir. Hesablamalara görə inkişaf etməkdə olan ölkələrdə işləyən yoxsul təbəqənin 80%-dən çoxu qeyri-formal iqtisadiyyatda fəaliyyət göstərir və gündə 2 dollardan az pul qazanır. 2017-ci ildə Beynəlxalq Əmək təşkilatının tədqiqinə əsasən məlum olmuşdur ki, öz hesabına çalışan işçilərin 82%-i, yəni təqribən 93 milyon işçi (ümumi işçi qüvvəsinin 29%-i) qeyri-formal məşğulluqda işləyir. Eyni zamanda, 51 milyon ailə işçisi var ki, onların da hamısı tərifinə görə qeyri-rəsmi statusa malik hesab olunur. Təsadüfi deyil ki, qeyri-formal məşğulluğun payının ən çox olduğu sektor Kənd təsərrüfatıdır, çünki qeyri-formal məşğulluqda işləyən yoxsul insanların böyük bir hissəsi şəhər yerlərindən daha çox, kənd yerlərində məskunlaşmışdır [4].

Charmes tərəfindən 61 ölkədə aparılan araşdırmaya əsasən Asiya ölkələrinin 65%-i, Latın Amerika ölkələrinin 57%-i, Yaxın şərq və Şimali Afrika ölkələrinin 48%-i, Şərqi Avropa və Mərkəzi Asiyanın keçid ölkələrinin 25%-i qeyri-formaldır. Eyni mənbəyə əsasən qeyd edə bilərik ki, dünya üzrə qeyri-formal iqtisadiyyat ( kənd təsərrüfatı da daxil olmaqla) Hindistanın ÜDM-un 54%-ni, Latın Amerikası ölkələrinin ÜDM-nun 29%-ni və keçid ölkələrinin ÜDM-nun 19%-ni əhatə etməkdədir. Beynəlxalq Əmək təşkilatının rəsmi statistikasını təqdim edən WIEGO-ya istinadən deyə bilərik ki, dünyanın inkişaf etməkdə olan 47 ölkəsinin ən azı yarısında kənd təsərrüfatı üzrə çalışmayan işçilərin 50%-i qeyri-formaldır.

Yuxarıda da qeyd edildiyi kimi, qeyri-formallıq kişilərlə müqayisədə qadınlar arasında daha çox yayılıb. Məsələn, Afrikanın səhralıq bölgələrində 84%-i qeyri-kənd təsərrüfatı ilə məşğul olan qadınlardır, bu nisbət kişilərdə isə 63%-dir.

Tədqiqatların əksəriyyətində kənd təsərrüfatının daxil olmamasının əsas səbəbi bu kateqoriya üzrə qeyri-məşğulluq payının çox olmasıdır. Məsələn, aşağıdakı qrafikdə qeyri-formal məşğulluğa daha çox kənd təsərrüfatı və sənaye sektorlarıda rast gəlindiyini təsdiq edir. Orta hesabla inkişaf etməkdə olan və aşağı gəlirli ölkələrdə bu iki sektor qeyri-formal məşğulluğun 70%-dən çoxunu əhatə edir [8].

İnkişaf etməkdə olan ölkələrdə sosial-müdafiə tədbirləri zəif inkişaf etdirilməsi və kifayət qədər maliyyələşdirilməyib əhalinin yalnız kiçik bir hissəsinə - dövlət qulluğunda, orduda və kiçik formal özəl sektorda rəsmi məşğulluğu olanlara xidmət edir. 2014-cü ildə Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən dünya üzrə əmək qabiliyyətli əhalinin yalnız 27%-nin sosial müdafiə tədbirlərinə çıxışı var. Qlobal ÜDM-un 8.6%-i sosial müdafiə tədbirlərinə ayrılır. Məsələn, statistikaya nəzər salsaq Afrikanın səhralıq bölgələrində ÜDM-un 5.1%, Asiya ölkələrin ÜDM-un 5.3%-i, Cənubi Amerika ölkələrinin ÜDM-un 13.2%-i, Şimali Amerika ölkələrinin ÜDM-un 19.4%-i, Avropa ölkələrinin ÜDM-un 26.7%-i sosial müdafiə xərclərinə ayrılır [7].

Sosial müdafiə probleminin ən yaxşı nümunəsi kimi, Afrika ölkələrini göstərmək olar. Elə təsadüfi deyil ki, dünyada ÜDM-da qeyri-formal iqtisadiyyatın payının ən böyük olduğu ölkələr afrika ölkələridir. Çünki bu tip iqtisadiyyatlarda aşağı səviyyəli insan kapitalı, minimal

məhsuldarlıq, gəlir səviyyəsinin az olması və yoxsulluq qeyri-formallığı xarakterizə edir. Qeyri-formal məşğulluq Cənubi Afrikanın özündə və Cənubi Afrika ölkələrində fərqli cür təzahür edir. Məsələn, Cənubi Afrikanın özündə kənd təsərrüfatına daxil olmayan sahələrində qeyri-formal məşğulluq 33% olsa da, Nambiya və Tanzaniya kimi regionlarda uyğun olaraq 44% və 76% təşkil edir. Eyni zamanda bu regionlarda əldə edilən gəlirin 14%-ni qeyri-formal məşğulluq təşkil edir bu da insanların yoxsulluq həddinin üstündə yaşamasını töhfə verir.

**Qrafik 1.**

**Sektorlar üzrə bölgü (2019)**




Mənbə: Beynəlxalq Əmək təşkilatının məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Düzü, Afrika ölkələrində qeyri-formal məşğulluğu ölçmək asan başa gəlmir və statistikanın zəif olması səbəbindən bu istiqamətdə edilən analizlər qeyri-rəsmi hesablamalara dayanır. 2014-cü ildə Beynəlxalq Valyuta fondunun apardığı hesablamalara əsaəsən Afrikanın səhralıq bölgələrində qeyri-formal məşğulluq 2010-2014-cü illərdə ÜDM-un 38%-ni təşkil edirdi, hətta Afrika əksər ölkələrindəki iş yerlərində qeyri-formal iqtisadiyatın çəkisi 90%-i əhatələyirdi [9].

Sosial müdafə probleminin qeyri-formal məşğulluq zamanı geniş yayılmasının əsas iqtisadiyyatda geniş vüsət alan sosial bərabərsizlik amilidir. Belə ki, oxşar bacarıqlara malik insanlar qeyri-formal iqtisadiyyatda işçi qüvvəsinə çevrilirsə öz yaşıdlarına nisbətən daha az əmək haqqı ilə işləyirlər, bu fərq təəssüf ki bacarıq səviyyəsi aşağı düşdükcə daha da yüksəlir. Məsələn bayaq da qeyd etdiyimiz kimi, Latın Amerikası ölkələrində son 20 il ərzində qeyri-formal məşğulluğun azalmasının başlıca səbəbi sosial bərabərsizliyin azalması ilə əlaqələndirilir.

Sosial bərabərsizlik probleminə ən yaxşı həll yolu sosial medyalardır. Belə ki son illərdə sosial medya platformlarından istifadə edənlərin sayı əhəmiyyətli dərəcədə artım qeyri-formal məşğulluğa müsbət və ya mənfi təsirini göstərməkdədir. Məsələn yuxarıda qeyd etdiyimiz kimi, qeyri-formal iqtisadiyyatda çalışan fərdlər bir çox maliyyə institutlarına çıxış əldə edə bilmirlər. Lakin sosial şəbəkə vasitəsi ilə hər hansı bir ideya ilə yeni bir biznesə başlayaraq maddi rifahını bu vasitə ilə artıra bilər. Ya da ki, qeyri-formal iqtisadiyyatda çalışan işçi istifadə etdiyi sosial şəbəkə vasitəsi ilə informasiya bazarına pulsuz çıxış əldə edə bilər və ya sosial şəbəkədə təcrübəli şəxsləri izləyərək bazarda mövcud imkanları öyrənə bilər və həmçinin onlardan məsləhət ala bilər. Təbii ki, sosial medyanın qeyri-formal iqtisadiyyata təsir göstərməsinin əsas səbəbi istifadənin pulsuz olması və asanlıqla əldə edilə bilən olmasıdır. Beynəlxalq Əmək təşkilatının məlumatına əsasən qeyri-formal iqtisadiyyatda fəaliyyət göstərən müəssisə və təşkilatların 85%-ə qədəri informasiya və maliyyə bazarına çıxış üçün sosial şəbəkəyə ehtiyac duyurlar. Dəyərlər üzrə Qlobal Bankçılıq Alyansının hesabatına əsasən isə, qeyri-formal iqtisadiyyatda fəaliyyət göstərən kiçik orta sahibkarların 60%-ə qədəri maliyyə resurslarına çıxış əldə etmək üçün sosial şəbəkələrin köməyinə ehtiyac duyurlar [10].

**Qeyri-formal məşğulluq yerli səviyyədə**

Təəssüf ki, Azərbaycanın statistika komitəsində qeyri-formal iqtisadiyyatın ümumi həcmi və qeyri-formal məşğulluqda olan insanların sayı barədə dəqiq məlumat yoxdur. Lakin əcnəbi

iqtisadçıların fikrinə görə ölkəmizdə qeyri-formal iqtisadiyyatın çəkisi orta hesabla 50%-dən yuxarıdır, dövlət əhəmiyyətli iqtisadçılar isə bu rəqəmi şişirdilmiş hesab edərək bu barədə statistikanın 10%-dən aşağı olduğunu iddia edir. Yerli ekspertlər fikrinə görə qeyri-formal iqtisadiyyatın çəkisinin 35%-dən aşağıdır. Ölkəmizdə aparılmış iqtisadi araşdırmalara əsasən, iqtisadi fəal əhalinin demək olar ki yarısı qeyri-formal iqtisadiyyatda işləyir, xarici tədqiqatlarda da, ölkəmizdə qeyri-formal iqtisadiyyatın çəkisini 38%-64% arası hesablayır. Statistika komitsəsinin məşğulluq haqqında məlumatlarına əsasən Azərbaycanda 2021-ci il ərzində iqtisadi fəal əhalinin sayı 5 mln 309 min nəfər olmuşdur. Bu rəqəmin 94%-i məşğul əhali (4 mln 988 min nəfər), 6%-i isə (315 min nəfər) işsiz əhalidir. Məşğul əhalinin 1 milyon 700 min nəfəri muzdlu işçilərdir. Bu isə o deməkdir ki, həmin bu şəxslərin əmək müqaviləsi mövcuddur. [3]

**Qrafik 2.**

**Muzdlu işçilərin sayı %-lə (2021)**




Mənbə: Statistika komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Beynəlxalq Əmək təşkilatının Azərbaycan haqqında statistikasına əsasən 2009-cu ildə qeyri-formal məşğulluqda olan qadınların sayı 254,000 nəfər, kişilərin sayı isə 153,000 nəfər olmuşdur. Bu rəqəmlər qeyri-kənd təsərrüfatı üzrə məşğulluğun uyğun olaraq 41.7% ilə 16.6%-ni əhatə edirdi [2]. Eyni zamanda hesabatda qeyd olunur ki, Azərbaycanda qanunla məşğulluq yaşı 15 olsa da, bir çox gənc qeyri-rəsmi olaraq kiçik bizneslərdə, məsələn restoranlarda, mağazalarda işləyirlər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda qeyri-formal məşğulluq prosesinə minimum əmək haqqı da öz təsirini göstərir. Belə ki, 2023-cü ilin yanvarından ölkədə yaşayış minimumu artılaraq 345 AZN olmuşdur. Bundan əvvəl isə 300 AZN təşkil edirdi. Ölkədə inflyasiyanın müvafiq dövr ərzində 14% olduğunu nəzərə alsaq, bu məbləğlə minimum ehtiyacları ödəmək çətin olduğunu demək mümkündür. Ona görə də insanların alternativ qeyri-formal işlərə yönəlməsinin normal qarşılamaq lazımdır. Hətta nəzərə alsaq ki, formal müəssisə və təşkilatlarda bəzi əmək haqqından icbari tutulmalar mövcuddur ki, (gəlir vergisi 14%, sosial müdafiə 3%, işsizlik üzrə sığorta 0.5% və icbari tibbi sığorta 1%) bu da gəlirlərin daha da azalmasına səbəb olur. [8]

Statistika komitəsinin saytından qeyri-formal məşğulluq haqqında məlumat əldə etmək mümkün olmadığı üçün, məqaləmdə “Google form” vasitəsi ilə sosial sorğu keçirməyə qərar verdim. Sorğuda 305 nəfər iştirak etdi, iştirak edənlərin 72%-i 18-30 yaş aralığında , 25%-i 30 yaşdan yuxarı, qalan 3%- isə 0-18 yaş aralığını təşkil edirdi. Sorğuda əsasən iştirakçılara 5 sual verilmişdir:

1) Hansı yaş aralığında olduqları barədə məlumat
2) İşlədiyiniz müəssisə və ya təşkilat sizin sosial ödənişlərinizi qarşılaması barədə məlumat
3) Qazandıqları pulu nağd yoxsa kartla xərcləmək davranışı barədə məlumat
4) Onlayn ödənişlərdən istifadə tezliyi barədə məlumat
5) Nağd ödənişlərdən istifadə tezliyi barədə məlumat

İştirakçıların ikinci suala verdikləri cavaba əsasən 44%-qarşıladığını, 41% qarşılamadığını, qalan 15%-i isə bilmədiklərini qeyd etdi.

İştirakçıların üçüncü suala verdikləri cavaba əsasən 68%-i qazandığı pulu kartla, 12%-i nağd şəkildə, qalan 20%-i isə hər iki ödəniş metoduna üstünlük verdiyini qeyd edib.




**Qrafik 3. İşlədiyiniz müəssisə və ya təşkilat sizin sosial ödənişlərinizi qarşılanması**
Mənbə: Sosial sorğunun məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.




**Qrafik 4. İşlədiyiniz müəssisə və ya təşkilat sizin sosial ödənişlərinizi qarşılaması.**
Mənbə: Sosial sorğunun məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

İştirakçıların dördüncü suala verdikləri cavaba görə 77%-i onlayn ödənişlərdən tez-tez istifadə etdiyini, 20%-i nadir hallarda istifadə etdiyini , qalan 3%-i isə heç vaxt istifadə etmədiyini qeyd edir.




**Qrafik 5. Onlayn ödənişlərdən istifadə tezliyi barədə məlumat**
Mənbə: Sosial sorğunun məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.




**Qrafik 6. Nağd ödənişlərdən nə qədər tezliklə istifadə edilməsı.**
Mənbə: Sosial sorğunun məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Sorğunun son sualında iştirakçılardan nağd ödənişlərdən istifadə tezliyi soruşulurdu. Qeydə alınmış cavablara əsasən, 52% iştirakçı tez-tez, 47% iştirakçı nadir hallarda, qalan 1% iştirakçı isə heç vaxt variantını seçmişdir.

**Nəticə**

Sosial məşğulluq islahatlar üzrə beynəlxalq təcrübə hamı üçün sosial müdafiə mərtəbələri də daxil olmaqla hərtərəfli sosial rifah sistemlərinin inkişafının vacibliyini vurğulayır. Yığımlar hesabına maliyyələşdirilən icbari sosial sığorta sxemləri əhalinin böyük qrupları, o cümlədən orta təbəqə üçün daha yüksək səviyyəli müavinətlərin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Kompleks soial məşğulluq sisteminin bir hissəsi kimi sosial müdafiə zəminin təmin edilməsi, həqiqətən sığortalanmayan və sosial iqtisadi rifahla kifayət qədər əhatə olunmayan şəxslərin daxil olunması üçün zəruridir. Buna görə də həm siyasət həm də əməliyyat səviyyələrində sosial müdaifəyə ehtiyac duyan qruplar arasında koordinasiya və inteqrasiyanın artırılmasına ehtiyac var. Ölkələr işçilərin və işəgötürənlərin maarifləndirilməsi istiqamətində səylərini davam etdirməlidir. Bundan əlavə, hökümətlər sosial məşğullq siyasətlərinin və proqramlarının uğurunu qiymətləndirmək üçün spesifik hədəfləri və göstəriciləri təyin etməli və milli və regional monitoring çərçivələri yaratmalıdır. Beynəlxalq səviyyədə bir çox uğurlu strategiyalar göstərir ki, sosial məşğulluğun formal səviyyədə olan əhatə dairəsinin genişləndirilməsi üçün əsas məsələ dövlət xərclərinin bu istiqamətdə sərf edilməsidir. Çünki yüksək iqtisadi artım əlavə fiksal sahənin yaradılması üçün çoxlu əlverişli imkanlar yaradır. Yaddan çıxartnayaq ki, sosial məşğulluğun formal

səviyyədə təmin edilməsi əhalinin iqtisadi rifahını artırmaq üçün çox yaxşı investisiyadır, ona görə də bu məsələ sosial və iqtisadi zərurət kimi qəbul edilməli və adekvat maliyyə resursları ilə dəstəklənməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Oviedo, M.Thomas, K.Ozdemir. Economic Informality Causes, Costs, and Policies—A Literature Survey. Washington, D.C. 20433, U.S.A. May 2009
2. Abdurrahimli F. Informal employment as a side effect of informal economy in Azerbaijan. SSRN Electronic Journal. 2019:1-6. D
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin əmək bazarı haqqında məlumatları. https://www.stat.gov.az/source/labour/
4. F. Schneider, A.Buehn, C.Montenegro. Shadow Economies All over the World: New Estimates for 162 Countries from 1999 to 2007. The World Bank Development Research Group Poverty and Inequality Team. Europe and Central Asia Region. Human Development Economics Unit. July 2010
5. International Labour Organization. How to extend social protection to workers in informal employment in the Asian region. Bangkok. 2019
6. McKinsey Global Institute. Diana Farrel. The hidden dangers of the informal economy. San Francisco office. 2004
7. Measurement of the Informal Economy. International Labour Office Geneva. 2007
8. Nahmadova, Firuza. Does informal employment improve livelihood in the long-term in Azerbaijan. Baku Research Institute. MPRA Paper No. 111039
9. Research, network and support facility (RNSF). Extending coverage: social protection and the informal economy. c/o ARS Progetti S.P.A., Via Durban 2, 00144 Rome, Italy. 2017
10. Strong, Straightforward and Sustainable Banking. Financial Capital and Impact Metrics of Values Based Banking. March 2012

**Хазар Акбар оглы Асланов**

## ГЛОБАЛЬНОЕ И ЛОКАЛЬНОЕ ВОЗДЕЙСТВИЕ НЕФОРМАЛЬНОЙ ЗАНЯТОСТИ НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ БЛАГОПОЛУЧИЕ

**Резюме**

Неформальная занятость стала одной из важнейших научных тем. Трудно представить анализ современного состояния социально-экономического развития Азербайджана, игнорируя проблему неформальной занятости. Публикаций на эту тему с каждым днем становится все больше, но границы этого понятия и его внутренняя структура остаются неясными. Общая информация о действующей концепции - дает основу для ее свободного развития. Однако этот вопрос поднимался в исследованиях по развивающимся странам. Это было сделано в контексте изучения неформального сектора. Применение концепции было обусловлено наличием в этих странах значительных групп людей, не участвовавших в организованном рынке труда, но в то же время создавших собственную систему занятости, подчинявшуюся идее выживания. Это проявляется в различных видах деятельности, которые существуют в форме самозанятости или малого семейного бизнеса.

**Ключевые слова:** *экономика, занятость, финансы, бюджет, теория*

**Khazar Akbar oglu Aslanov**

## GLOBAL AND LOCAL İMPACT OF İNFORMAL EMPLOYMENT ON SOCİAL ECONOMİC WELL-BEİNG

### Summary

Informal employment has become one of the most important scientific topics. It is difficult to imagine the analysis of the current state of socio-economic development of Azerbaijan, ignoring the problem of informal employment. Publications on this topic are growing day by day, but the boundaries of this concept and its internal structure remain unclear. General information about the current concept - provides the basis for its free development. However, this issue has been raised in research on developing countries. This was done in the context of studying the informal sector. The application of the concept was due to the presence of significant groups of people in these countries who did not participate in the organized labor market, but who at the same time created their own employment system that obeyed the idea of survival. This has manifested itself in various activities that exist in the form of self-employment or small family businesses

**Keywords:** *Economy, employment, finance, budget, theory*

**Daxil olub:** 12.02.2023